# Altıncı çağırış Milli Məclis öz fəaliyyətini islahatlar kursuna uyğunlaşdıracaq



***"Martın 10-da Prezident İlham Əliyevin iştirakı ilə altıncı çağırış Milli Məclisin ilk iclası keçirildi. Ölkədə aparılan inqilabi islahatlar parlamentin həmin iclasında özünü açıq şəkildə büruzə verdi. Milli Məclisin və komitələrin rəhbərliyi yeniləndi. İlk dəfə olaraq, parlamentin rəhbərliyində müxalifət partiyasının nümayəndəsi təmsil olundu. Düşünürəm ki, altıncı çağırış Milli Məclis yeni tərkibdə və yeni müstəvidə öz işini Azərbaycan Prezidentinin təşəbbüsü ilə həyata keçirilən islahatlar kursuna uyğun quracaq və normativ hüquqi bazanın formalaşdırılması istiqamətində mühüm addımlar atacaq, uğurla fəaliyyət göstərəcək və dövlətçiliyimizin, müstəqilliyimizin qorunmasına öz töhfəsini verəcək". Bu fikirləri Milli Məclisin deputatı, siyasi elmlər doktoru, professor Elman Nəsirov bildirib.***

Deputat ölkə Prezidentinin ilk iclasdakı nitqinə münasibət bildirərkən dedi ki, dövlət başçısının parlamentdəki çıxışında qaldırdığı məsələlər sırasında, xüsusilə, çoxpartiyalılığın Azərbaycanın siyasi sisteminin inkişafında yeri və rolu ilə bağlı məqamı vurğulaması təqdirəlayiqdir: "2018-ci ilin aprel ayında respublikamızda keçirilən prezident seçkilərindən sonra dövlət başçısının təşəbbüsü ilə ölkədə dərinləşən islahatlar kursuna start verildi. Bu islahatlar kursu bütün sferaları əhatə etdi. Ölkəmizin rəhbəri nitqində diqqətə çatdırdı ki, islahatlar nəticəsində Prezident Administrasiyasında, Nazirlər Kabinetində, yerli mərkəzi icra hakimiyyəti orqanlarında struktur və kadr dəyişiklikləri həyata keçirildi və hazırda bu proses uğula davam etdirilir".

E.Nəsirov bildirdi ki, reallıqlar fonunda, Milli Məclisdə də dəyişikliklərin aparılması məntiqi zərurətdən irəli gəlirdi. Fevralın 9-da keçirilən seçkilərlə də xalqın iradəsini əks etdirən yeni parlament heyəti formalaşdırıldı. Parlamentin yeniləşən tərkibi göstərir ki, Milli Məclisdə köklü islahatların aparılmasına zərurət var idi.

Deputat qeyd etdi ki, parlamentin çoxpartiyalılıq əsasında formalaşması və müstəqil Azərbaycanın tarixində ilk dəfə Milli Məclisin sədri vəzifəsinə xanım deputatın seçilməsi yenilənmənin təzahürüdür. Bu amil, həm də ölkəmizdə qadınların hüquqlarının qorunduğunu, onlara böyük etimad göstərildiyini deməyə əsas verir. Həmçinin müxalifət partiyalarının təmsilçilərinə də komitələrdə vəzifə verilməsi iqtidar–müxalifət münasibətlərinin yaxşılaşmasına, siyasi əlaqələrin möhkəmlənməsinə zəmin yaradacaq: "Ayrı-ayrı partiyaların nümayəndələrinin Milli Məclisin rəhbərliyi və komitələrində təmsil olunması siyasi sistemin möhkəmləndirilməsi, münasibətlərin sağlam zəmində inkişaf etdirilməsi məqsədini daşıyır. İkinci mühüm hadisə Azərbaycan parlamentində bitərəflərlə yanaşı, müxtəlif partiyaların nümayəndələrinin təmsil olunmasıdır. Bu, çox mühüm məsələdir və bir daha təsdiqləyir ki, Milli Məclis çoxpartiyalılıq prinsipi əsasında formalaşıb. Təkcə vitse-spiker deyil, komitə sədrləri səviyyəsində də azlıq təşkil edən partiya üzvlərinin təmsil olunması dediklərimizi bir daha təsdiqləyir".

E. Nəsirov Vətəndaş Həmrəyliyi Partiyasının müxalifətyönümlü olduğunu diqqətə çatdırdı və həmin partiyanın təmsilçisinin Milli Məclis sədrinin müavini vəzifəsinə seçilməsini ölkədə bütün siyasi partiyalara bərabər münasibət bəslənilməsinin təzahürü kimi dəyərləndirdi: "Bir sözlə, Milli Məclisin çoxpartiyalılıq əsasında formalaşması iqtidarla müxalifət arasında gedən dialoqun müsbət müstəvidə tamamlandığını deməyə əsas verir. Bu da respublikamızdakı sabitliyi, əmin-amanlığı təcəssüm etdirir".

**Əliqismət BƏDƏLOV,**
**"Xalq qəzeti"**

Xalq qəzeti 2020.- 13 mart.- S.3.